# Çexiyanın parlament nümayəndə heyətinə Müdafiə Sənayesi Nazirliyinin fəaliyyəti barədə məlumat verilib

Martın 14-də müdafiə sənayesi naziri Yavər Camalov Azərbaycanda səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasının müdafiə komitəsinin sədri David Kadnerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Sənayesi Nazirliyinin (MSN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Y.Camalov Azərbaycan ilə Çexiya arasında müxtəlif sahələrdə inkişaf edən ikitərəfli əməkdaşlığı yüksək qiymətləndirib. Nazir nümayəndə heyətinə MSN-in fəaliyyəti ilə bağlı məlumat verib.



Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

D.Kadner səmimi görüşə görə minnətdarlığını bildirib.